**UOT: 81**
https://doi.org/10.59849/2409-4838.2025.1.12

# OBRAZ SXEMLƏRİN KONSEPT YARATMAQ XÜSUSİYYƏTİ

**Səidə Məhiyəddin qızı Əhmədova**
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu, Bakı, Azərbaycan
seide-86@mail.ru

*İdeallaşdırılmış koqnitiv modellər insan zəkasına xas olan qavrayış, təcrübə, anlama və s. kimi qabiliyyətlərilə bütünləşir. Bu modellərin yaranması insan zəkasında gedən proseslər sayəsində meydana gəlir. Koqnitiv modellərin bəzi növləri geniş konseptləri daha da yığcamlaşdırır. Bəzi növləri isə mənanı genişləndirir və müxtəlif konseptlər yaranmasına təkan verir. İdeallaşdırılmış koqnitiv modellərin hər biri konsept yaradıcısı rolunu oynaya bilir. Bu konseptlər obraz sxemlər vasitəsilə daha sistemli  şəkildə təqdim oluna biər. Araşdırmada ideallaşdırılmış koqnitiv modellərin və eləcə də, onun bir növü olan obraz sxemlərin konsept yaratmaq xüsusiyyətindən bəhs edilir. Obraz sxemlər özü müxtəlif modellərdən ibarətdir. Hər bir model fərqli konsept yaratmağa qadirdir. Məqalədə müəyyən obraz sxemlərə əsasən yarana biləcək konseptlər göstərilir. Metafora, metonimiya, mental məkanlar kimi ideallaşdırılmış koqnitiv modellərin konsept yaratmaq xüsusiyyətləri qeyd edilir. Tədqiqat işində obraz-sxemlərin əsaslandığı nəzəriyyələr araşdırılıb.*

***Açar sözlər:*** *konsept, obraz sxemlər, təfəkkür, dil, modellər*

## GİRİŞ

*“Konsept”* sözü hər hansı fikrin arxasında dayanan ideyanı nəzərdə tutur. İnsan təxəyyülündə canlanan obrazların, əsərlərin, eləcə də müəyyən koqnitiv modellərin əsasında müəyyən bir konsept dayanır. Konseptlərin idrak məhsulu olduğuna və mücərrədlik daşıdığına görə müəyyən izaha ehtiyacı olduğunu nəzərə almalıyıq. Konseptlərin başa düşülməməsi və ya düzgün izah edilməməsi dildə də müəyyən problemlərə gətirib çıxarır. M.Hedblom məhz modelləşmədə yarana biləcək ən başlıca problemlərdən biri kimi konseptlərin dəyişkənliyini və insan zəkasından asılı olduğunu göstərmişdir. Hedblom insan zəkasının kompüter sisteminə uyğunlaşmasında konseptlərin böyük rolu olduğunu əsaslandırırdı.

Ümumiyyətlə, konseptlərin yaranmasında ideallaşdırılmış koqnitiv modellərin bütün növlərini əsas gətirmək olar [1, s. 230].

İdeallaşdırılmış koqnitiv modellər insan zəkasına xas olan qavrayış, təcrübə, anlama və s. kimi qabiliyyətlərilə bütünləşir. Bu modellərin yaranması insan zəkasında gedən proseslər sayəsində meydana gəlir. Koqnitiv modellərin bəzi növləri geniş konseptləri daha da yığcamlaşdırır. Bəzi növləri isə mənanı genişləndirir və müxtəlif konseptlər yaranmasına təkan verir. İdeallaşdırılmış koqnitiv modellərin hər biri konsept yaradıcısı rolunu oynaya bilir. Bu konseptlər obraz sxemlər vasitəsilə daha sistemli  şəkildə təqdim oluna biər.

C. Lakoff dildə və dildən kənarda mövcud olan mental obrazları *İdeallaşdırılmış Koqnitiv Model* adlandıraraq, bir-birilə əlaqəsini də göstərmişdir. O, ən böyük konsept yaradıcısı kimi metaforları xüsusi qiymətləndirir və onu bədii ədəbiyytdan başqa gündəlik həyatımızda olduğunu qeyd edirdi [2, s. 1-13].

**Tədqiqatın metodu.** Araşdırma mövzusunda müqayisəli təhlil, koqnitiv analiz metodu və nəzəri yanaşmalardan istifadə edilib. Müxtəlif konseptləri yaradan fərqli modellər müqayisəli şəkildə təhlil edilib.

**Metoforik və metonomik modellərin konsept yaratması.** Qeyd olunduğu kimi, obraz sxemlərin ideallaşdırılmış koqnitiv modellərinə metoforik və metonomik modellər də daxildir. Bu modellər ən zəngin konseptyaratma xüsusiyyətinə malikdirlər. Bununla bağlı olaraq, D.V. Olqa İsabel *English Studies* jurnalında dərc etdiridiyi məqaləsində obraz sxemlərin həm metafor, həm də metonimiya üçün əlaqələndirici rol oynadığına istinad edir. Bir tərəfdən, obraz sxemlər çoxlu sayda me-

taforik modellərin və konseptlərin yaranmasında mənbə domen rolunu oynayır. Digər tərəfdən, onlar metonomik konseptlərin də yaranmasına xidmət edir.

Metonomik konseptlərin anlaşılmasında və yaranmasında domenlər haqqında əvvəldən təcrübə əldə etmək vacibdir. "*Şekspir çox maraqlıdır*" ifadəsinin daxilində Şekspirin yaşadığı dövr, onun fəaliyyəti və yazdığı əsərlərinin hərəsi bir konseptdir. Şekspir haqqında heç bir məlumatı olmayan biri onu oyun növü, hər hansı bir film, əsər və s. hesab edə bilər. Lakin onun haqqında müəyyən biliyə sahib olan şəxs konseptin açıqlaması olmadan Şekspirin yazıçı olduğunu və əsərlərinin maraqlı olduğunu başa düşür [3, s. 47-65]. Ümumiyyətlə, metonomik modellər kimi, metoforik modellərin də başa düşülməsi üçün əvvəlcədən müəyyən iformasiyaya ehtiyac yaranır.

## ƏSAS HİSSƏ

**Obraz sxemlərin kosept yaratması.** Obraz sxemlər də koqnitiv dilçilyə xas olan model kimi təfəkkür və dil arasında mühüm körpü rolunu oynayır. Obraz sxemlər sözlərin mənasını digər sözlər və məhfumlarla əlaqələndirərək çoxlu sayda yeni konseptlərin yaranmasına təkan verir. Bir sxem bir neçə məna əlaqələndirməsi yarada bilər. J.Raves araşdırmasında obraz sxemlərin bir parçası olan CIĞIR sxeminin həyatımız boyu daha böyük rol oynadığını vurğulayır. MƏNBƏ-CIĞIR-HƏDƏF sxemində CIĞIR daha çox hədəfə doğru hərəkətimizlə bağlı təqdim olunur. Lakin J. Raves CIĞIR sxeminin zaman konsepti ilə bağlılığına diqqət çəkir. Ravesin təqdimatına əsasən bu sxemdə keçmiş zamandan indiyədək insanın keçdiyi zaman yolu təqdim edilir. Gələcək zamanın reallaşması dəqiq olmadığına görə daha çox keçmiş və indiki zaman ön plana çəkilir.

Zaman konsepti ilə həm tarixi metaforalar yaranır, həm də müxtəlif konseptlər əlaqələndirilir. Fikrimizdə tutduğumuz hərəkət sxemi həm də zaman trayektoriyası ilə birgə irəliləyir. CIĞIR-ƏLAQƏ-DÖVRETMƏ kimi sxemlərin zamanla əlaqəsini izah edən J.Raves burada zamanla və ya obyektlə insan arasındakı əlaqənin daima dövr etdiyini əsaslandırır. O, bütün həyatın mexanizmə əsasən təkrarlandığını göstərir. Bu sxem əsasında da müxtəlif konseptlər yaratmaq mümkündür. Əslində bu sxemi obyekt və subyekt arasındakı hərəkətə, duyğuların və hisslərin ifadəsinə, müəllifin də qeyd etdiyi kimi zaman trayektoriyasına və digər maddi və mənəvi varlıqlara aid etmək olar.

Bütün bunlar insanın həyatı boyu əldə etdiyi təcrübələrə əsaslanır. Buna görə də obraz sxemlər həm fərdlərə, həm də ayrı-ayrı xalqların mədəniyyətinə, ümumi psixologiyasına və yaşayış tərzinə, eləcə də, dil quruluşu və onun ifadə formalarına görə fərqli və sonsuz sayda ola bilər [4]. Jan Mandler və C.P.Kanovas birgə yazdıqları *Dil və Koqnisiya* adlı kitablarında Hədəf və Cığır sxemini daha ön plana çəkir və beş aylıq körpənin CIĞIR sxemini daha tez qavramasını iddia edir. Qeyd etdiyimiz kimi, CIĞIR sxeminə həm məkan, həm zaman, həm də hərəkət anını daxil etmək olar [5, s. 510-532].

Varner Kun isə öz tədqiqat işində obraz sxemlərin kompüter və dizayner sahəsindəki roluna diqqət çəkir. O, obraz sxemlərə əlaqələndirici vasitə kimi qiymət verir. Kompüter proqramlaşmasında mücərrəd metaforik modellərin anlaşılması üçün konseptləri və onlar arasında əlaqəni müəyyən etmək vacib amillərdəndir. Obraz sxemlər isə kiçik sxemlər vasitəsilə ümumi konsepti özündə cəmləşdirərək yarana biləcək əlaqələri təmin edir. Müəllif, xüsusilə, Lakoff tərəfindən yaradılan KONTEYNER, CIĞIR, BÜTOV-HİSSƏ, YAXIN-UZAQ kimi modellərə diqqət çəkir. Onların riyazi üsullarla əlaqələndirici konseptlər yaratmasında böyük rolu olduğuna əsas gətirir. Lakin o, metaforik modellərin mücərrədlik xüsusiyyətinə görə onların bir sistem altında bütöv bir sxem şəklində formalaşmasının çətin olduğunu vurğulayır [6, s. 1-15].

**Mental məkanların konsept yaratması.** Konseptyaratma xüsusiyyətinə görə obraz sxemlərlə yanaşı, mental məkanlar və onun mürəkkəb növü olan blendinqlərin də rolu çox böyükdür. Mental məkanlar güclü yaddaşımızın və təcrübələrimizin birgə fəaliyyətinin nəticəsidir. Qavrayış prinsipləri ilə daha əvvəl yaddaşımızda yer alan obyektlər fərqli məkanda yeni formada təzahür edir. İlk dəfə Jil Fokonye və Mark Törner hər hansı bir hadisənin üçüncü bir məkanda birləşməsini mental məkanlar adlandırmışdılar.

Bu yanaşma ilə onlar iki və daha çox konseptin birləşməsinin mümkün olduğunu qeyd etmiş, iki və daha çox mental məkanın daha mürəkkəb konsept yaratmasını blendinqlər adı altında yeni bir nəzəriyyə kimi təqdim etmişdilər. Mental məkanların həm yaddaş, həm də əlaqələndirici rolu mühüm əhəmiyyət kəsb edir. Reallıqda mümkün olmayan iki fərqli dövr və ya məkan, mental məkanlar sayəsində bir model altında birləşə bilər. Törner qartal və şir obrazının birləşməsindən qrifon adlanan mifik div obrazının yaranmasını blendiqnlərin nümunəsi kimi əsaslandırmışdır. Meşənin vəhşi heyvanı şir, quşların vəhşi növü olan qartalla birləşərək insan təxəyyülündə yeni obraz kimi canlandırılır. Əslində, bu obrazlar təxəyyüldən tam kənara çıxa bilmir. Burada, sensor motor təcrübəsi əsasında qavranılan məhfumlar yeni fantastik konseptdə təqdim edilir [7].

Törner və Fokonyenin istinadına dayanaraq, insan təfəkkürünə yad olan və fantastik konseptlərin müəyyən zaman içində texnologiyanın inkişafı ilə reallaşa bildiyini də görə bilərik. Mobil telefonlar, uçan maşınlar, təyyarələr, danışan cihazlar və robotlar və s. kimi süni intellekt modelləri buna nümunədir. Bu modellər arasında daha mürəkkəb və mücərrəd modellərin yaranmasında böyük rol oynayan obraz sxemlər mental məlumatın ötürülməsinə xidmət edən bir nəzəriyyədir. Süni intellektdə və ya dildə simvolların birləşməsi müəyyən mənanın ötürülməsinə xidmət edir. Lakin kompüter dilçiliyinin də ən ali məqsədi qrammatik dil qaydalarından kənara çıxan konsept və frazaların sayını artıraraq maşın dilini daha anlaşılan etməkdir [8]. İdeallaşdırılmış koqnitiv modellərin yaratdığı bütün konseptləri birləşdirən əsas amil onların sensor motor təcrübəsinə söykənməsidir. Obraz sxemlərin Mental məkanlarda bir çox obraz sxemlər xüsusi rol oynayır. Əsasən, *yuxarı, aşağı, içəridə, çöldə,* kimi məkan mənşəli sxemlər çoxlu sayda məkan konsepti yarada bilər.

Sadalananlara əsasən, verilən fikirlərin arxasında insan təfəkkürü və psixologiya dayanır. Obraz sxemlərin də, psixologiyaya aid olan *mövcudluq* nəzəriyyəsi əsasında yarandığı iddia edilir [1, s. 43].

Mövcudluq nəzəriyyəsi 1977-ci ildə psixoloq J.Gibson tərəfindən təqdim edilmişdir. Bu nəzəriyyəyə görə obyektlərin forma və xüsusiyyətlərinə görə hansı funksiya və hərəkəti yerinə yetirəcəyini qabaqcadan göstərmək olar. Məsələn, piano dillər üzərində melodiya səsləndirmək funksiyasına işarə verir, pilləkənlər isə enmə və qalxma hərəkətini ifadə edir. Buradan da məlum olur ki, ilk dəfə gördüyümüz əşya haqqında bu fikri söyləmək çətin olardı. Bu nəzəriyyə də, obraz sxemlərdə olduğu kimi, müəyyən təcrübə tələb edir.

Qavrayış təcrübəsi olmayan obyekt haqqında belə asanlıqla qənaətə gəlmək çətin olar. Bu nəzəriyyə 1980-ci illərdə kompüter və dizayner sahələrinə, loqoların hazırlanmasına tətbiq olundu. Nəzəriyyədə əsas fikirlərdən biri də obyektin xarici görünüşünə baxan kimi nəticə çıxarmamaqdan ibarətdir. Bəzən əşyanın xarici görünüşü bizi aldada bilər. Burada əşyanın materialı və keyfiyyəti vacibdir. Məsələn, kağızdan hazırlanmış oyuncaq piano onun haqqında bizə məlumat verə bilər, lakin reallıqda o funksiyasını yerinə yetirmək üçün uyğun materialdan hazırlanmalıdır. Bu fikri, həmçinin, qırılmış və işini düzgün yerinə yetirməyən piano haqqında da söyləmək olar. Mövcudluq nəzəriyyəsinin özünün də geştalt nəzəriyyəsinə söykəndiyi iddia edilir [9].

Obraz sxemlərin konsept yaratma xüsusiyyəti insanın qavrayış və yaşayış təcrübəsilə yarana bilir. İlkin sensor və motor təcrübəyə dayanan yeni konseptlər yaranır. Obraz sxemlər geştalt nəzəriyyəsinə söykənərək YUXARI-AŞAĞI, İRƏLİ-GERİ kimi sxemlərə əsasən məkan və istiqaməti, eləcə də zaman və an konseptini özündə əks etdirir. Obraz sxemlər məna dəyişmə və məna köçürülmə xüsusiyyətinə malikdir. Bu xüsusiyyətinə görə də obraz sxemlər daha mürəkkəb konseptlər meydana gətirərək daha yaradıcı xüsusiyyətlərə malik ola bilər [10]. Obraz sxemlər digər ideallaşdırılmış koqnitiv modelləri özündə əks etdirə bilər. Metaforalar müxtəlif konseptlər yaratmağa malikdir. Bu konseptlər müəyyən obraz sxemlərdə əks oluna bilər.

**Mədəniyyətlərin konsept yaratması.** Qeyd olunan bütün konseptlərin mədəniyyətlə əlaqəsi, dilə xas olan xüsusuiyyəti daha vacib rol oynayır. Hər bir mədəniyyət dildə özünəxas konseptlər təqdim edir. Konseptlər bəzən universal xarakter daşısa da, bəzən də öz ənənəsini təmsil edir. Məsələn, *"Qonaq gələndə, ev sahibi onu evin qapısında tək buraxmaz"*, cümləsində Azərbaycan mədə-

niyyətini təmsil edən qonaqpərvərlik, qonağa yeksək ehtiram nəzərdə tutulur. Bu konsepti tam anlamaq üçün Azərbaycan mədəniyyətini bilmək və xalqın qonaqpərvərliyinin şahidi olmaq lazımdır.

Digər nümunədə isə ingilis xalqına xas olan xüsusiyyətə nəzər salaq: "*Keep calm and carry on"* ifadəsi sakit ol və yoluna davam et mənasında işlənir. Bu konsept ingiltərənin müharibə dövründə soyuqqanlı şəkildə döyüşə davam etmələrini göstərir və müasir dövrdə də soyuqqanlı insanlar olduğunu ehtiva edir. Bu ifadə artıq müxtəlif reklamlarda, fərqli konseptlərdə rahatlıqla istifadə edilir və hər bir ingilis  tərəfindən asanlıqla başa düşülür. Bu ifadəni nədənsə zövq almaq mənasında daha çox işlədirlər (keep calm and drink- içməkdən zövq al, keep calm and watch- seyr etməkdən zövq al və s.) [11]. Ümumiyyətlə müxtəlif ideallaşdırılmış koknitiv modellərin konsept yaratmaq xüsusiyyətilə tanış olduq.

**YEKUN NƏTİCƏ**

Belə nəticəyə gəlmək olar ki, ideallaşdırılmış koqnitiv modellərin hər birinin müxtəlif konsept yaratmaq xüsusuiyyəti vardır. Metaforik və metonomik modellərin mücərrəd xüsusiyyətlərinə görə yaratdıqları konseptlərin izahına ehtiyac yarandığını vurğulaya bilərik. Obraz-sxemlərin hərəkət trayektoriyasını əks etdirən modellərin, həm də zaman konsepti yarada bilmək xüsusiyyəti olduğu məlum olur.

Araşdırmadan belə görünür ki, mental məkanlar və blendinqlərin müxtəlif konseptlər yaratması danılmazdır. Ümumiyyətlə, bu modellərin əksəriyyəti mücərrəd xarakter daşıdığına görə, ideallaşdırılmış koqnitiv dil modellərinin kompüter texnologiyalarına təqtbiqi çətin olur və konseptləri başa düşmək üçün əlavə izaha və məlumata ehtiyac yaranır. Konseptlərin bəzən çətin başa düşülməsi isə ölkənin keçdiyi tarixi yolu, mədəniyyəti və digər mədəniyyətlərlə kəsişməsindən asılıdır. Əksər modellərin xalqın təfəkkürü ilə sıx bağlı olduğu müşahidə olunur, xüsusilə metoforik modellərdə bunu daha çox müşahidə edə bilərik.

Yekun olaraq deyə bilərik ki, obraz-sxemlər psixologiya və təfəkkürlə bağlı olub geştalt nəzəriyyəsinə söykənir. Bu da onu göstərir ki, insanlar konseptləri bütöv məna kimi qavrayır və əvvəlcədən qavranılmış konseptlər müəyyən şəraitdə tanış gəlir, yeni yaranan və ya tanış olmayan konsept modellər isə müəyyən izahdan sonra qavranılır.

**ƏDƏBİYYAT**


1. Hedblom, M.M. Image Schemas and Concept Invention: Cognitive, Logical, and Linguistic Investigations / Ph.D. dissertation in engineering / – Magdeburgı, – 2018. – 230 p.
2. Feldam, J., Lakoff, G. Metaphor, Cognitive Models, and Language // Special Topics University of California, – 2000. – p. 1-13.
3. Velasco, O.I. Metaphor, metonymy, and image-schemas: An analysis of conceptual interaction patterns // Journal of English Studies, – 2021, 3 (2), – p. 47-65.
4. https://jayarava.blogspot.com/2016/01/image-schemas-metaphor-and-thought.html
5. Mandler, J., Canovas, C. On defining image schemas // Language and Cognition, Researchgate, – 2014, 6 (4), – p. 510-532.
6. Kuhn, W., Frank, A. A formalization of metaphors and image-schemas in user interfaces // – Orono, USA: Research Gate, – 2012. – p. 1-15.
7. Faucunnier, G.M. The way we think / G.M. Faucunnier. – New York: Basik Books, – 2002. – 472 s.
8. https://plato.stanford.edu/index.html
9. https://danewesolko.medium.com/the-theory-of-affordances-cb51fd138b3e
10. https://ru.wikibrief.org/wiki/Image_schema
11. https://www.dictionary.com/e/keep-calm-and-carry-on/

**FEATURES OF CONCEPT CREATION OF IMAGE SCHEMES**

**S.M. Ahmadova**

Idealized cognitive models are completed with the abilities belonging to a human cognition such as perception, experience, understanding, etc. The creation of these models is due to the processes of human cognition. Some types of cognitive models condense broad concepts. Some types expand the meaning and stimulate the creation of different concepts. Each of the idealized cognitive models can act as a concept creator. These concepts can be presented in a more systematic way through image schemas. The study deals with the concept-building nature of idealized cognitive models, as well as one of its types, image schemes. The image schemes themselves consist of different models. Each model is capable of creating a different concept. The article shows concepts that can arise according to certain schemes. Concept-building features of idealized cognitive models such as metaphors, metonymy, and mental spaces are noted in the article. The theories on which image schemes are based are studied in the research too.

**Keywords:** *concept, image schemas, cognition, language, models*

**КОНЦЕПТУОГЕНЕТИЧЕСКИЕ ОСОБЕННОСТИ ОБРАЗНЫХ СХЕМ**

**С.М. Ахмедова**

Идеализированные когнитивные модели дополняются способностями, присущими человеческому познанию, такими как восприятие, опыт, понимание и т. д. Создание этих моделей обусловлено процессами человеческого познания. Некоторые типы когнитивных моделей объединяют общие концепции. Некоторые типы расширяют смысл и стимулируют создание разных понятий. Каждая из идеализированных когнитивных моделей может выступать в роли создателя концепции. Эти концепции могут быть представлены более систематически с помощью схем изображений. Исследование посвящено концептуализирующей природе идеализированных когнитивных моделей, а также одному из их типов - образным схемам. Сами схемы изображений состоят из различных моделей. Каждая модель способна создать свою концепцию. В статье показаны понятия, которые могут возникать по определенным схемам. В статье отмечаются особенности построения концептов идеализированных когнитивных моделей, таких как метафоры, метонимия, ментальные пространства. Теории, на которых основаны схемы изображений, также рассматриваются в статье.

**Ключевые слова:** *концепт, схемы образов, познание, язык, модели*